UOT 327.7

**Ramilə Bəhlul qızı Dadaşova**
**AMEA-nın Qafqazşünaslıq İnstitutunun icraçı direktoru**
**Siyasi elmlər doktoru, dosent**
**e-mail: dadashova. ramila@rambler. ru**

# AZƏRBAYCAN RESPUBLİKASININ ÇİN İLƏ MÜNASİBƏTLƏRİ

**Xülasə:** BMT Təhlükəsizlik Şurasının daimi üzvlərindən biri olan Çin Xalq Respublikası beynəlxalq aləmdə nüfuzlu bir mövqeyə malikdir. Çin bu qurumda olan digər həmkarları kimi qətnamələrin qəbul edilməsində veto hüququndan yararlana bilir. Azərbaycan Respublikası Çin ilə münasibətlərin gücləndirilməsinə önəm verir. Çin ilə Azərbaycan arasında ticarət, iqtisadiyyat, elm, təhsil, mədəniyyət, ədliyyə, kənd təsərrüfatı, nəqliyyat, turizm, enerji sahəsində əməkdaşlığa dair sənədlər imzalanmışdır. Çin həmişə Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəkləmişdir.

**Açar sözlər:** Azərbaycan, Çin, BMT, veto hüququ, ticarət, iqtisadiyyat.

**Giriş.** Öz iqtisadi potensialına görə ABŞ və Rusiyadan sonra üçüncü yerdə olan Çin ABŞ-ın ən böyük potensiallı rəqibidir. Çin ordusu öz sayına görə (2,4 milyon) ABŞ ordusunu (1,5 milyon) geridə qoyur. Çin BMT Təhlükəsizlik Şurasının daimi üzvlərindən biridir və veto hüququndan öz məqsədləri üçün istifadə edə bilir.

Azərbaycan və Çin münasibətlərinin tarixi uzaq keçmişə gedib çıxır. Hər iki dövləti hələ iki min il bundan əvvəl İpək Yolu birləşdirirdi. Azərbaycan Respublikası Çinlə iqtisadi, ticarət, elmi-texniki, mədəni əlaqələrini daimi inkişaf etdirir. İkitərəfli münasibətlərdə olduğu kimi, çoxtərəfli əməkdaşlıqda da hər iki dövlət bir-birini dəstəkləyir. 44 günlük Vətən müharibəsində Çin heç bir müdaxilə etmədi. Çin mətbuatı daima Azərbaycanın qələbələri haqqında məlumat verdi. Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərdə, Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında aparılan quruculuq işlərində Çin şirkətləri fəal iştirak edir. Çin həmişə Azərbaycanın, Azərbaycan da Çinin ərazi bütövlüyünü tanımışdır.

**Azərbaycan Respublikasının Çin ilə əməkdaşlığı.** Beynəlxalq həyatda və dünya siyasətində böyük nüfuza malik olan Çin Xalq Respublikası dünya iqtisadi sistemində də mühüm yer tutur. BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Çin ilə Azərbaycan arasında diplomatik münasibətlər 1992-ci il aprelin 2-də quruldu. Çin Azərbaycanın müstəqilliyini tanıyan və Bakıda səfirliyini açan ilk dövlətlərdən biridir. Çin Xalq Respublikasının beynəlxalq aləmdə tutduğu mövqe ilə bağlı Azərbaycan Respublikası onunla münasibətlərin gücləndirilməsi

istiqamətində fəaliyyət göstərdi. Çin dövlətinin Azərbaycanda ticari-iqtisadi maraqları var. Çin Xalq Respublikasının sədri Tsyan Tseminin dəvətinə əsasən, 1994-cü il 7-9 mart tarixlərində Prezident Heydər Əliyev Azərbaycan nümayəndələrinin böyük bir qrupu ilə Çində oldu. Çin ilə Azərbaycan arasında ticarət, iqtisadiyyat, elm, mədəniyyət, turizm sahəsində əməkdaşlığın inkişaf etdirilməsi imkanları müzakirə edilərək, razılaşma nəticəsində sənədlər imzalandı. Beynəlxalq vəziyyətin aktual məsələləri, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və nəticələri haqqında da fikir mübadiləsi oldu. Çin Xalq Respublikası və Azərbaycan arasında əməkdaşlığın prinsipləri haqqında bəyannamə imzalandı. Eyni zamanda Çin ilə Azərbaycan arasında münasibətlərin gələcək inkişafını müəyyənləşdirən dövlətlərarası əlaqələrə dair daha yeddi sənəd imzalandı. Pre- zident Heydər Əliyev Dövlət Şurasının Baş naziri Li Penlə də görüşdü. Bütün bu görüşlərdə Heydər Əliyev Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün əsl mahiyyətini və münaqişənin nizama salınması üçün Azərbaycanın ədalətli mövqeyini diqqətə çatdırdı [1; s. 458-464].

Azərbaycan kifayət qədər sanballı iqtisadi potensiala malik olsa da, müstəqilliyinin ilk illərində dərin sosial-iqtisadi böhran keçirirdi. Çin Beynəlxalq Ticarətin İnkişafına Yardım Komitəsi ilə görüşün keçirilməsi Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasında ticari-iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsində çox mühüm vasitə idi. Görüş zamanı Heydər Əliyev Azərbaycanın kifayət qədər sanballı iqtisadi potensiala, həm sənaye, həm də kənd təsərrüfatı potensialına malik olduğunu qeyd etdi. Prezident, həmçinin Pekində İctimai Elmlər Akademiyasının alimləri, mütəxəssisləri, əməkdaşları ilə görüşdü və Azərbaycanın Çinlə əlaqələrinin tarixi və gələcək perspektivləri haqqında danışdı [1, s. 473-474]. Çində 1949-cu ildən Tayvan problemi mövcuddur. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, Qarabağın dağlıq hissəsinə iddiaları nöqteyi-nəzərdən Azərbaycan və Çin oxşar problemlər yaşayır. Danışıqlar zamanı Çin Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəklədiyini bildir- mişdir. Azərbaycan da Çinin ərazi bütövlüyünü dəstəkləyir.

Çin Azərbaycan ilə enerji sahəsində də əməkdaşlıq edir. Belə ki, 2002-ci ilin iyun ayında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Çinin Şengli şirkəti arasında qarşılıqlı memorandum imzalanmışdır [2]. Çin şirkətləri Azərbaycanda "Kürsəngi-Qarabağlı" və "Cənub-Qərbi Qobustan" layihələrində iştirak edirlər. Azərbaycanın Çində ticarət nümayəndəsi, Lucouda Azərbaycan Ticarət Evi, Urumçidə və Şanxayda Azərbaycan şərab evləri fəaliyyət göstərir. Azərbaycanda bank, sığorta, kənd təsərrüfatı, sənaye, tikinti, ticarət, xidmət sahələrində 120-dək Çin kapitallı şirkət qeydiyyatdan keçib. Çin şirkətləri Azərbaycan iqtisadiyyatına 832 milyon dollar investisiya yatırıblar. Çinin Cənubi Qafqaz ölkələri ilə ticarətinin 55 faizi Azərbaycanın payına düşür [3].

Azərbaycanla Çin arasında elm və təhsil sahəsində geniş əlaqələr var. 1993-1994-cü tədris ilindən başlayaraq Çin hökumətinin Azərbaycana ayırdığı təqaüdlər əsasında məhdud sayda Azərbaycan vətəndaşı Çinin ali məktəblərində təhsil almağa göndərildi. Eyni zamanda Çin vətəndaşları Azərbaycanda, böyük əksəriyyəti Azərbaycan Dövlət Neft Akademiyasında təhsil almağa başladılar. Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində 1997-ci ildən Çin dili ixtisası şöbəsi fəaliyyət göstərir [4]. 2012-ci ildən isə Azərbaycan Dillər Universitetində Çin dili tədris olunur. Bakı Dövlət Universitetinin nəzdində Konfutsi İnstitutu (Azərbaycan Dillər Universitetində, Xəzər Universitetində isə filialları), Azərbaycan-Çin Təhsil və Araşdırma Mərkəzi fəaliyyət göstərir. Çin ilə təhsil sahəsindəki əlaqələr inkişaf etməkdədir. Çində Pekin Xarici Dillər Universitetində Azərbaycan dili öyrədilir. 2016-cı ildə Azərbaycan dili kafedrası yaradıldı və 2017-ci il fevralın 28-də Çində ilk dəfə olaraq Azərbaycan dili üçüncü dil kimi tədris olunmağa başladı [5]. Bakıda Azərbaycan-Çin dostluq cəmiyyəti də qurulmuşdur.

Çinin xarici işlər naziri Lyu Tsyan Çao 2007-ci ildə Azərbaycanın Dağlıq Qarabağ regionunda qanundan kənar olaraq keçirilən "prezident seçkiləri" ilə əlaqədar aşağıdakıları bildirdi: "Çin hökuməti Azərbaycan Respublikasının müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə hörmət edir, BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ barədə qətnamələrini dəstəkləyir" [6, s. 37].

2014-cü il may ayında Çinə işgüzar səfər edən Prezident İlham Əliyev Çin Xalq Respublikasının sədri Si Cinpin ilə görüşdü. Görüşdə Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında energetika, infrastruktur, nəqliyyat, ticarət dövriyyəsinin artırılması, texnologiyalar, beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək, humanitar, investisiya qoyuluşu və digər sahələrdə əlaqələrin genişləndirilməsi məsələləri müzakirə olundu.

Söhbət zamanı beynəlxalq məsələlər, o cümlədən, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı [7, s. 43].

2015-ci il dekabrın 8-11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasında rəsmi səfərdə oldu və Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşdü. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev dövlət başçıları tərəfindən imzalanacaq Birgə Bəyannamədə bu problemin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü əsasında həll edilməsinin əksini tapmasının önəmli olduğunu vurğuladı. Dövlət başçısı Çinin münaqişənin Azərbaycanın ərazi bütövlüyü əsasında həllini dəstəklədiyini yüksək qiymətləndirdi, Azərbaycanın da "Vahid Çin" prinsipinə dəstək verdiyini bildirdi. İki ölkənin rəhbərləri arasındakı şəxsi dostluğun münasibətlərin inkişafına töhfə verdiyini vurğulayan Prezident İlham Əliyev

Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələri genişləndirməkdə maraqlı olduğunu və bunun Azərbaycan Respublikasının xarici siyasətinin prioritetlərindən birini təşkil etdiyini dedi. Terrorizm, təcavüzkar separatizm, ekstremizm kimi təhlükələrlə mübarizədə hər iki ölkənin hüquq-mühafizə orqanları arasında əməkdaşlığın önəmini qeyd edən İlham Əliyev Çin şirkətlərinin Azərbaycanda energetika sektorunda fəaliyyət göstərdiyini, Respublikanın infor- masiya-kommunikasiya sahəsində əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduğunu vurğuladı [8, s. 343-344]. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Çin Xalq Respublikasının Sədri Si Cinpin "Azərbaycan Respublikasının və Çin Xalq Respublikasının dostluq münasibətlərinin və əməkdaşlığın daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi haqqında Birgə Bəyannamə"ni imzaladılar [8, s. 345]. Bundan başqa, iqtisadiyyat, energetika, kənd təsərrüfatı, nəqliyyat, təhsil, ədliyyə sahələrində əməkdaşlıq üçün müqavilələr imzalandı [8, s. 345-346].

Azərbaycan və Çin arasında nəqliyyat sahəsində əməkdaşlıq üçün çox yaxşı perspektivlər var. Çin 2013-cü ildə Avrasiya ölkələri arasında infrastrukturun yaradılmasına və qarşılıqlı iqtisadi əlaqələrin qurulmasına yönəlmiş "Bir Kəmər-Bir Yol" adlı yeni iqtisadi inkişaf strategiyası elan etdi. Strategiya iki əsas inkişaf istiqamətini – "İpək Yolu İqtisadi Kəməri" və "Dəniz İpək Yolu" – əhatə edir, malların Şərqdən Qərbə güzəştli şərtlərlə birbaşa daşınması üçün ticarət dəhlizinin yaradılmasını nəzərdə tutur. 2016-cı ildə Azərbaycan və Çin "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzaladılar. ABŞ siyasi eksperti Piter Teys Azərbaycanın "Bir Kəmər-Bir Yol" adlı layihədə rolu haqqında bildirdi ki, "Pekinin tranzit üçün Azərbaycan ərazisini seçməsi təsadüfi deyil. Azərbaycanın dəmir yolları səmərəliliyinə görə dünyada ilk yerlərdən birini tutur və bu, Mərkəzi Asiya ölkələrinin iqtisadi cəhətdən bö- yüməsi üçün vacibdir. Bu dəmir yolları Cənub-Şərqi Asiya və Cənub-Şərqi Avropa arasında ticarəti inkişaf etdirir. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dəmir yolu nəqliyyatının inkişafı və ümumilikdə milli iqtisadiyyatın gücləndirilməsi istiqamətində böyük bir siyasət yürüdür" [9].

**Nəticə.** Azərbaycan Respublikası ilə Çin arasında münasibətlər inkişaf edir. Hər iki dövlət bir-birinin ərazi bütövlüyünü tanıyır. Qarşılıqlı diplomatik nümayəndəlikləri fəaliyyət göstərir. Azərbaycan Respublikasının Çin ilə əməkdaşlığı çoxşaxəlidir. Diplomatik-siyasi əməkdaşlıqla yanaşı, ticarət-iqtisadi, nəqliyyat, elmi-texniki, təhsil, mədəniyyət sahələrində əlaqələr qənaətbəxşdir.

## Ədəbiyyat siyahısı:


1. Əliyev, H. Ə. Müstəqilliyimiz əbədidir. 46 kitabda, 1-ci kitab, - Bakı: - Azərnəşr, - 1997,- 612 s.
2. Azərbaycan və Çin arasında əməkdaşlığın yeni səhifəsi ARDNŞ və "Şengli" şirkətləri arasında hasilat və pay bölgüsü haqqında müqavilə imzalanmışdır. 04. 06. 2003. https://azertag. az/xeber/Azarbaycan_va_Chin_arasında_amakdaslıgın_yenı_sahıfası A RDNŞ_va_Şenglı_sırkatları_arasında_hasılat_va_pay_bolgusu_haqqında_ muqavıla ımzalanmısdır-983445
3. Çin şirkətləri Azərbaycan iqtisadiyyatına 832 milyon dollar investisiya yatırıb. 27. 11. 2019. https://vergiler. az/news/economy/5828. html
4. Təhsil sahəsində Azərbaycan-Çin əməkdaşlığı: təşəbbüslər və nəticələr. 09. 02. 2013. https://525. az/news/5758-tehsil-sahesinde-azerbaycan-cin-emekdasligi-tesebbusler-ve-neticeler
5. Çində "İlin ən yaxşı xarici müəllimi" seçilmiş azərbaycanlı. 19. 06. 2020. https://www. muallim. edu. az/news. php?id=11845
6. Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту. - Баку: - Министерство Иностранных Дел, -2009, - 368 s.
7. Əliyev, İ. H. İnkişaf-məqsədimizdir: -Bakı: -Azərnəşr, -108 kitabda, 63-cü kitab, -2018, - 408 s.
8. Əliyev, İ. H. İnkişaf-məqsədimizdir: - Bakı: - Azərnəşr, 108 kitabda, 71-ci kitab, - 2018, - 408 s.
9. Ekspert: "Azərbaycanın dəmir yolları Çinin "Bir Kəmər-Bir Yol" təşəbüssünün vacib hissəsidir". 26. 11. 2019. https://report. az/analitika/azerbaycan-cinin-bir-kemer-bir-yol-tesebussunun-vacib-hissesidir/

**Рамила Бахлул кызы Дадашова**

## ВЗАИМООТНОШЕНИЯ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ И КИТАЕМ

**Резюме:** Китайская Народная Республика, постоянный член Совета Безопасности ООН, занимает влиятельное положение на международной арене. Китай в организации может использовать свое право на вето по отношению к другим странам для принятия резолюций. Азербайджанская Республика придает большое значение укреплению отношений с Китаем. Китай и Азербайджан подписали документы о сотрудничестве в сферах торговли, экономики, науки, образования, культуры, юстиции, сельского хозяйства, транспорта, туризма и энергетики. Китай всегда поддерживал территориальную целостность Азербайджанской Республики.

**Ключевые слова:** Азербайджан, Китай, ООН, вето, торговля, экономика.

**Ramila Bahlul qizi Dadashova**

## RELATIONS OF THE REPUBLIC OF AZERBAIJAN WITH CHINA

**Summary:** The People's Republic of China, one of the permanent members of the UN Security Council, has an influential position in the international arena. China can use its veto power over other colleagues in the body to pass resolutions. The Republic of Azerbaijan attaches great importance to strengthening relations with China. China and Azerbaijan have signed documents on cooperation in trade, economy, science, education, culture, justice, agriculture, transport, tourism and energy. China has always supported the territorial integrity of the Republic of Azerbaijan.

**Key words:** Azerbaijan, China, UN, veto, trade, economy.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 18.04.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: kulturologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Əliyeva**